**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Tibbi xidmətlər və dərman vasitələri departamentinin**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (bundan sonra – Agentlik) Tibbi xidmətlər və dərman vasitələri departamenti (bundan sonra – Departament) Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi”nə (bundan sonra – Nizamnamə) və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin strukturuna uyğun yaradılan Agentliyin Aparatının struktur bölməsidir.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Agentliyin Nizamnaməsini, Agentliyin İdarə Heyətinin qərarlarını, Agentliyin İdarə Heyəti sədrinin (bundan sonra – sədr) əmr və sərəncamlarını, icbari tibbi sığorta sahəsində mövcud olan qanunvericilik aktlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament fəaliyyətini Agentliyin digər struktur bölmələri ilə əlaqəli həyata keçirir.

1.4. Departamentin tərkibində Özəl tibb müəssisələrinin ekspertizası şöbəsi, Dövlət tibb müəssisələrinin ekspertizası şöbəsi, Tibbi xidmətlərin tənzimlənməsi və texniki qaydaları şöbəsi və Dərman və tibbi vasitələr şöbəsi fəaliyyət göstərir.

## 2. Departamentin fəaliyyət istiqamətləri

2.1. Departamentin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. icbari tibbi sığorta sahəsində Agentliyin siyasətinin formalaşmasında iştirak etmək və bununla bağlı normativ hüquqi aktların layihələrinə təkliflər vermək;

2.1.2. icbari tibbi sığorta sahəsinin inkişafının təmin edilməsi və həkim sirrinin qorunması istiqamətində tədbirlər görmək;

2.1.3. səlahiyyətləri daxilində sığortaolunanlara xidmətlər zərfi çərçivəsində göstərilən profilaktika, müalicə və reabilitasiya yardımının həcminin, müddətinin, keyfiyyətinin və qiymətinin tərəflərlə bağlanılmış müqavilənin şərtlərinə uyğun olmasına nəzarət etmək;

2.1.4. tibbi-iqtisadi ekspertizaları həyata keçirmək, tibbi-iqtisadi ekspertizanın texniki qaydalarını müəyyən etmək;

2.1.5. icbari tibbi sığorta fondu çərçivəsində sığortaolunanların dərman və tibb vasitələri ilə təmin edilməsinə dair tədbirlər görmək;

2.1.6. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Departamentin vəzifələri

3.1. Departamentin bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq ümumi vəzifələri aşağıdakılardır:

3.1.1. əhalinin sağlamlığının qorunması və yaxşılaşdırılması məqsədi ilə tibbi xidmətlərin keyfiyyət və səmərəliliyinin artırılması istiqamətində təkliflər vermək;

3.1.2. icbari tibbi sığorta üzrə xidmətlər zərfinə və onun təkmilləşdirilməsi istiqamətində işlər görmək;

3.1.3. icbari tibbi sığorta sahəsi üzrə dövlət proqramlarının, strategiyaların və inkişaf konsepsiyalarının həyata keçirilməsinə dair təkliflər irəli sürmək və rəylər vermək;

3.1.4. icbari tibbi sığorta çərçivəsində əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində qabaqlayıcı tədbirlər görmək;

3.1.5. icbari tibbi sığorta çərçivəsində sığortaolunanlara göstərilmiş tibbi xidmətlərin keyfiyyət və əsaslılığına nəzarəti təmin etmək məqsədilə tibbi xidmətin təşkilinə baxış keçirmək, fəaliyyət istiqamətinə uyğun sənədlərin təqdim edilməsini tələb etmək;

3.1.6. sığorta ödənişlərinin müqavilədə nəzərdə tutulmuş qaydada və müddətdə ödənilməsi üçün müvafiq sənədlərin hazırlanmasını təmin etmək;

3.1.7. tibb müəssisələrində aparılan ekspertiza zamanı aşkar edilmiş pozuntulara dair və tibbi xidmətlərlə bağlı nöqsan və çatışmazlıqların mütəmadi baş verdiyi tibb müəssisələri barədə rəhbərliyə məlumat vermək;

3.1.8. sığortaolunanlara göstərilən tibbi xidmətlər müqabilində tibb müəssisələrinə ödənilən sığorta ödənişlərinin əsaslılığına nəzarət etmək;

3.1.9. icbari tibbi sığorta çərçivəsində sığortaolunanların dərman və tibb vasitələri ilə təmin edilməsinə dair tədbirlər görmək və bu istiqamətdə görüləcək işlərə nəzarət etmək;

3.1.10. stasionar və ya ambulator şəraitdə istifadə olunan dərman və tibb vasitələrini müəyyənləşdirmək;

3.1.11. xidmətlər zərfinə daxil ediləcək dərman vasitələrinin təsiredici maddələrinin və tibb vasitələrinin siyahısını müəyyənləşdirmək;

3.1.12. səlahiyyətləri çərçivəsində sığortaolunan şəxslərin mənafeyinin qorunması üçün müvafiq tədbirlər görmək;

3.1.13. tibb müəssisəsi və ya tibb işçisinin təqsiri nəticəsində sığortaolunanlara vurulmuş zərər müəyyən edildikdə bu barədə Agentliyin rəhbərliyinə məlumat vermək;

3.1.14. səlahiyyətləri çərçivəsində müraciət edən şəxslərin qəbulunu həyata keçirmək, vətəndaşlardan və təşkilatlardan daxil olan müraciətləri araşdırmaq və aidiyyəti üzrə cavablandırmaq;

3.1.15. icbari tibbi sığorta sahəsi üzrə strategiyaların və inkişaf konsepsiyalarının həyata keçirilməsinə dair təkliflər irəli sürmək və rəylər vermək;

3.1.16. Departamentin səlahiyyət və vəzifələrini əhatə edən siyasət, prosedur və qaydalar hazırlamaq və buna uyğun fəaliyyətini təşkil etmək;

3.1.17. Departamentin işçiləri tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

3.1.18. öz səlahiyyətləri daxilində vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərin və sorğuların qanunvericiliyə uyğun olaraq baxılmasını və müvafiq tədbirlərin görülməsini təmin etmək;

3.1.19. öz səlahiyyətləri daxilində sığortaolunanların hüquqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.1.20. icbari tibbi sığorta sahəsində inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görür, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.21. Departamentin strukturuna daxil olan şöbələrin iş planlarını nəzərdə tutulmuş qaydada tərtib etmək və icrasına nəzarət etmək;

3.1.22. Departamentin iş planını, fəaliyyəti ilə bağlı hesabatları nəzərdə tutulmuş qaydada dövrlər üzrə hazırlamaq;

3.1.23. sədr tərəfindən Departamentə tapşırılmış digər vəzifələri yerinə yetirmək.

## 4. Departamentin hüquqları

4.1. Departamentin öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqları vardır:

4.1.1. sığortaolunanlara xidmətlər zərfinə uyğun tibbi yardım göstərilməsi üçün tibb müəssisələri ilə müqavilə bağlanması ilə bağlı rəhbərliyə təkliflər vermək;

4.1.2. müvafiq sahə üzrə analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq, təkliflər vermək;

4.1.3. sığorta hadisələrini araşdırmaq, rəy bildirmək və nəticəsini rəhbərliyə təqdim etmək;

4.1.4. tibb müəssisələri müqavilənin şərtlərini pozduqları hallarda tibbi xidmətlərə çəkilən xərcləri qismən ödəmək, ödəməkdən imtina etmək və ya tibb müəssisəsidən ödənilmiş vəsaitlərin geri qaytarılmasını tələb etmək;

4.1.5. icbari tibbi sığorta sahəsi üzrə qanunvericiliyə dair təkliflər vermək;

4.1.6. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində Agentliyin struktur bölmələrinə və Agentliklə əməkdaşlıq edən qurum və təşkilatlara (tibb müəssisələri, aptek təşkilatları, dərman vasitəsinin dövlət qeydiyyatı haqqında vəsiqəsinin sahibi və digər təşkilatlar) müvafiq qaydada sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

4.1.7. Agentlikdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, komitələrdə iştirak etmək, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Agentliyin nümayəndəsi qismində Agentliyi təmsil etmək;

4.1.8. fəaliyyət istiqamətləri üzrə yerli və beynəlxalq təcrübəni öyrənmək və tətbiqi ilə bağlı təkliflər vermək;

4.1.9. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

4.1.10. Departamentin işçilərinin ixtisasının artırılması üçün təkliflər vermək;

4.1.11. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5 Özəl tibb müəssisələrinin ekspertizası şöbəsi

5.1. Şöbə, Departamentin bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

5.1.1. səlahiyyətləri daxilində sığortaolunanlara xidmətlər zərfi çərçivəsində göstərilən tibbi yardımın həcmi, müddəti, keyfiyyəti, şərtləri və tariflərinin özəl tibb müəssisələri ilə bağlanılmış müqavilənin şərtlərinə uyğun olmasına nəzarət etmək;

5.1.2. icbari tibbi sığorta təminatı veriləcək tibbi xidmətlərin tariflərinin təhlilini həyata keçirmək və bununla bağlı rəylər vermək;

5.1.3. icbari tibbi sığorta sistemində iştirak edən özəl tibb müəssisələri tərəfindən aylıq hesabatların təqdim edilməsini tələb etmək;

5.1.4. özəl tibb müəssisələrinə sığorta ödənişlərinin həyata keçirilməsi üçün müvafiq sənədləri tərtib etmək və yoxlanılmasını həyata keçirmək;

5.1.5. icbari tibbi sığorta sistemində iştirak edən özəl tibb müəssisələrində, standartlaşdırılmış hesabat və məlumatların toplanması sisteminin işlənib hazırlanmasını təmin etmək;

5.1.6. özəl tibb müəssisələrində aparılan ekspertiza zamanı aşkar edilmiş pozuntulara dair Agentliyin rəhbərliyinə məlumat vermək;

5.1.7. sığortaolunanlara göstərilən tibbi xidmətlər müqabilində özəl tibb müəssisələrinə ödənilən sığorta ödənişlərinin əsaslılığına nəzarət etmək;

5.1.8. özəl tibb müəssisəsi və ya tibb işçisinin təqsiri ucbatından sığortaolunana vurulmuş zərər müəyyən edildikdə bu barədə rəhbərliyinə məlumat vermək;

5.1.9. fəaliyyəti ilə bağlı hesabatları nəzərdə tutulmuş qaydada dövrlər üzrə hazırlamaq və rəhbərliyə təqdim etmək, ekspertiza aktlarının uçotunun aparılması üzrə işləri icra etmək;

5.1.10. şöbənin əməkdaşları arasında iş bölgüsünün aparmaq, işlərin görülməsinə nəzarət etmək və daxili nizam-intizam qaydalarına riayət edilməsini təmin etmək;

5.1.11. Departament rəhbəri tərəfindən şöbəyə tapşırılmış digər vəzifələri yerinə yetirmək.

## 6. Dövlət tibb müəssisələrinin ekspertizası şöbəsi

6.1. Şöbə, Departamentin bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

6.1.1. səlahiyyətləri daxilində sığortaolunanlara xidmətlər zərfi çərçivəsində göstərilən tibbi yardımın həcmi, müddəti, keyfiyyəti, şərtləri və tariflərinin dövlət tibb müəssisələri ilə bağlanılmış müqavilənin şərtlərinə uyğun olmasına nəzarət etmək;

6.1.2. icbari tibbi sığorta təminatı veriləcək tibbi xidmətlərin tariflərinin təhlilini həyata keçirmək və bununla bağlı rəylər vermək;

6.1.3. icbari tibbi sığorta sistemində iştirak edən dövlət tibb müəssisələri tərəfindən aylıq hesabatların təqdim edilməsini tələb etmək;

6.1.4. dövlət tibb müəssisələrinə, sığorta ödənişlərinin həyata keçirilməsi üçün müvafiq sənədləri tərtib etmək və yoxlanılmasını həyata keçirmək;

6.1.5. icbari tibbi sığorta sistemində iştirak edən dövlət tibb müəssisələrində, standartlaşdırılmış hesabat və məlumatların toplanması sisteminin işlənib hazırlanmasını təmin etmək;

6.1.6. dövlət tibb müəssisələrində aparılan ekspertiza zamanı aşkar edilmiş pozuntulara dair Agentliyin rəhbərliyinə məlumat vermək və müvafiq tədbirlər görmək;

6.1.7. sığortaolunanlara göstərilən tibbi xidmətlər müqabilində dövlət tibb müəssisələrinə ödənilən sığorta ödənişlərinin əsaslılığına nəzarət etmək;

6.1.8. dövlət tibb müəssisəsi və ya tibb işçisinin təqsiri ucbatından sığortaolunlara vurulmuş zərər müəyyən edildikdə bu barədə rəhbərliyə məlumat vermək;

6.1.9. fəaliyyəti ilə bağlı hesabatları nəzərdə tutulmuş qaydada dövrlər üzrə hazırlamaq və rəhbərliyə təqdim etmək, ekspertiza aktlarının uçotunun aparılması üzrə işləri icra etmək;

6.1.10. Şöbənin əməkdaşları arasında iş bölgüsünü aparmaq, işlərin görülməsinə nəzarət etmək və daxili nizam-intizam qaydalarına riayət edilməsini təmin etmək;

6.1.11. Departament rəhbəri tərəfindən şöbəyə tapşırılmış digər vəzifələri yerinə yetirmək.

## 7. Tibbi xidmətlərin tənzimlənməsi və texniki qaydaları şöbəsinin vəzifələri

7.1. Şöbə, Departamentin bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

7.1.1. icbari tibbi sığorta üzrə xidmətlər zərfinə daxil edilməsi nəzərdə tutulan tibbi xidmətlərə dair layihələri hazırlamaq və bundan irəli gələn tənzimlənmə işlərini həyata keçirmək;

7.1.2. icbari tibbi sığorta üzrə xidmətlər zərfi ilə müəyyən edilmiş tibbi xidmətlərin istifadə edilməsinə dair ekspertiza qaydalarının qanunvericliyə uyğun və beynəlxalq təcrübədən istifadə edərək hazırlanmasında iştirak etmək;

7.1.3. icbari tibbi sığorta üzrə xidmətlər zərfi ilə müəyyən edilmiş tibbi xidmətlərin istifadə edilməsinə dair texniki qaydalar hazırlamaq, həmin qaydaların elektron ekspertiza sisteminə tətbiq edilməsinə dair təkliflər vermək və icrasına nəzarət etmək;

7.1.4. xidmətlər zərfinin təkmilləşdirilməsi məqsədilə tibbi xidmətlərlə bağlı tibb müəssisələrindən, qurumlardan, dövlət orqanlarından və sığortaolunan şəxslərdən daxil olan məlumatları təhlil etmək, dəyərləndirmək və proqnozlaşdırılmış hadisələrə dair qabaqlayıcı tədbirlər planının hazırlanmasına dair təkliflər vermək;

7.1.5. tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlərin sığorta təminatına uyğunluğu ilə bağlı rəylər vermək;

7.1.6. icbari tibbi sığorta üzrə xidmətlər zərfinə daxil olan tibbi xidmətlər və ekspertiza qaydalarının izahı ilə bağlı Agentliklə müqaviləsi olan tibb müəsissələrində təşkil olunmuş təlimlərdə iştirak etmək;

7.1.7. mübahisəli tibbi sığorta hadisələrini araşdıraraq analitik rəy bildirmək və tibbi xidmətlərin gələcək inkişaf perspektivlərini müəyyən edilməsi və icbari tibbi sığorta üzrə xidmətlər zərfinə daxil edilməsi və ya dəyişiklik edilməsinə dair təkliflər irəli sürmək;

7.1.8. icbari tibbi sığorta üzrə xidmətlər zərfinə daxil edilməsi nəzərdə tutulan tibbi xidmətlərə dair layihələrin hazırlanması zamanı praktiki tibbi məsələlərin tədqiqi, və nəzərdə tutulan xidmətlərinin göstərilməsi üçün qanunvericiliklə müəyyən olunmuş qaydada elmi-tədqiqat, tibb və təhsil müəssisələrinin və ya müstəqil ekspertlərinin, mütəxəssislərinin, eyni zamanda yerli və beynəlxalq tibbi ictimai birliklərin, tibbi assosiasiyalarının dəvət edilməsinə dair Agentliyin rəhbərliyinə təkliflər vermək;

7.1.9. Departamentin əməkdaşlarının tibbi ekspertizanın texniki qaydaları üzrə inkişafını təşkil və təmin etmək, həmçinin həmin şəxsləri bu istiqamətdə mütəmadi təlimləndirmək;

7.1.10. şöbənin işinin planlaşdırılması və təkmilləşdirilməsinə dair rəhbərliyə təkliflər vermək;

7.1.11. fəaliyyəti ilə bağlı hesabatları nəzərdə tutulmuş qaydada dövrlər üzrə hazırlamaq və rəhbərliyə təqdim etmək;

7.1.12. departament rəhbəri tərəfindən şöbəyə tapşırılmış digər vəzifələri yerinə yetirmək.

## 8. Dərman və tibbi vasitələr şöbəsi

8.1. Şöbə, Departamentin bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

8.1.1. əczaçılıq, dərman və tibb vasitələri sahəsində qanunvericilik aktlarının, normativ sənədlərin, habelə qeyri-normativ aktların layihələrini hazırlamaq və ya hazırlanmasında iştirak etmək;

8.1.2. stasionar şəraitdə istifadə olunan dərman və tibb vasitələrini müəyyənləşdirmək, onların kodlaşdırılmasını və elektron məlumat bazasının yaradılmasını həyata keçirmək, onların təyinatı və buraxılması şərtlərini müəyyən etmək;

8.1.3. Agentlik tərəfindən maliyyələşdiriləcək dərman və tibb vasitələrinin seçilməsi, kodlaşdırılması, dərman və tibb vasitələrinin farmakoiqtisadi təhlili, dərman və tibb vasitələrinin təyinatı və sığortaolunanların təmin edilməsi ilə əlaqədar standartları (texnoloji sxemlər, təlimatlar və s.) hazırlamaq;

8.1.4. stasionar şəraitdə istifadə olunan dərman və tibb vasitələrinin dövriyyəsinin bütün mərhələlərində onların effektivliyinə, iqtisadi səmərəliliyinə və səmərəli istifadəsinə nəzarət etmək, farmakoiqtisadi təhlillərini aparmaq;

8.1.5. stasionar şəraitdə istifadə olunan dərman və tibb vasitələrinin texniki şərtnamələrini (xarakteristikası) hazırlamaq və satınalınacaq dərman və tibb vasitələrinə dair arayış, rəy və təkliflər vermək;

8.1.6. müvafiq qanunvericilik aktlarında və dövlət proqramlarında Agentliyə həvalə edilmiş tədbirlərin, habelə təşkilati-sərəncamverici sənədlərdə nəzərdə tutulmuş tədbirlərin (tapşırıqların) həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək, bununla bağlı koordinasiya işlərini təşkil etmək;

8.1.7. xidmətlər zərfinə daxil ediləcək dərman vasitələrinin təsiredici maddələrinin və tibb vasitələrinin siyahısını hazırlamaq;

8.1.8. elektron resept, dərman və tibb vasitələrinin izlənməsi sistemi, e-təbib və dərman və tibb vasitələri ilə əlaqədar elektron sistemlərin qurulması, təkmilləşdirilməsi işlərində iştirak etmək;

8.1.9. xidmətlər zərfinə daxil edilməsi nəzərdə tutulan dərman vasitələrinin təsiredici maddələrinin və tibb vasitələrinin siyahısını hazırlamaq, habelə qanunvericilikdə müəyyən edilmiş digər hallardan irəli gələrək Agentliyin səlahiyyətlərinə uyğun şəkildə dərman və tibb vasitələri ilə əlaqədar siyahıların hazırlanmasını və təkmilləşdirilməsini təşkil etmək;

8.1.10. şöbənin səlahiyyət və vəzifələrini əhatə edən daxili siyasət, prosedur qaydaları hazırlamaq və buna uyğun fəaliyyətini təşkil etmək;

8.1.11. şöbənin iş planını müəyyən etmək və icrasına nəzarət etmək;

8.1.12. şöbənin fəaliyyəti ilə bağlı hesabatları nəzərdə tutulmuş qaydada dövrlər üzrə hazırlamaq;

8.1.13. rəhbərlik tərəfindən şöbəyə tapşırılmış digər vəzifələri yerinə yetirmək.

## 9. Departamentin fəaliyyətinin təşkili

9.1. Departamentin strukturu və işçilərinin sayı sədr tərəfindən təsdiq edilir. Departament bilavasitə İdarə Heyəti sədrinin müavininə tabedir və onun qarşısında hesabat verir. Sədr tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla, heç kəs Departamentin fəaliyyətinə müdaxilə edə bilməz.

9.2. Departamentin fəaliyyətinə sədr tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən departament rəhbəri rəhbərlik edir. Departament rəhbəri Departamentə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır. Departament rəhbəri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada şöbə müdiri və ya sədr tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir.

9.3. Departament rəhbəri:

9.3.1. Departamentin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

9.3.2. tabeliyində olan şöbələr və işçilər arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək və icra intizamına riayət etmələrinə nəzarət edir;

9.3.3. Departamentə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

9.3.4. Departamentin işçiləri barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsi üçün Agentliyin rəhbərliyinə təqdimatlar verir;

9.3.5. Departament tərəfindən vəzifələri yerinə yetirmək üçün səlahiyyətləri daxilində Agentliyin digər struktur bölmələrindən zəruri məlumat və sənədləri alır;

9.3.6. daxil olan ərizə, şikayət və təkliflərin qanunvericiliklə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

9.3.7. Departamentdə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

9.3.8. Departamenti təmsil edir.

9.4. Şöbələrə sədr tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şöbə müdiri rəhbərlik edir. Departamentin sədr tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən digər işçiləri vardır.

9.5. Departamentin hər bir işçisi əmək müqaviləsində nəzərdə tutulmuş vəzifələrin vaxtında yerinə yetirilməsinə, həmçinin, hazırladığı, araşdırdığı və imzaladığı sənədin Azərbaycan Respublikasının qanunvericilik aktlarına, Agentliyin İdarə Heyətinin qərarlarına, sədrin sərəncam və əmrlərinə uyğunluğuna görə bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələr çərçivəsində şəxsən məsuliyyət daşıyır.